17 sentyabr 2016
WWW.KASPI.AZ

# Başqa dünyanın adamı



■ Gülayə




A.Mirseyid ayrı-ayrı şeirlərində, esse və məqalələrində, rəsm əsərlərində özünün portret cizgilərini o qədər çoxplanlı şəkildə təqdim edib ki, bu tabloya hansısa ştrixi, detalı əlavə etmək hədər işdi. Adil öz yazılarında bütün sevdiyi insanların alnında bir nurun təcəlli etdiyini yazırdı və hesab edirdi ki, o nur Tanrı hədiyyəsidir. Görkəmli rəssam Mircavadın rəsmlərində sözün yaxşı mənasında demonik bir qüvvə olduğuna qəlbən inanan A.Mirseyid yazırdı ki, bu dahi rəssam bu dünyada öz rəsmlərindən çıxmış bir mif adam kimi yaşadı. Və heç bir tərəddüdə yer qoymadan bu dəqiq müşahidənin gözü ilə Adil Mirseyidin özünü də xarakterizə edə bilərik. Necə yazmışdısa eləcə də oldu; sənətkar ömrünün prozasını özüylə qəbir evinə götürdü Adil Mirseyid.

Bu da növbəti təkrar; Adili yenidən oxuyuram. İlk baxışda (və reallıqda) bu yazılanlar Rembrant, Qoyya, Piter Paul Rubens, Andrey Tarkovski, Mircavad, Pasternak, Əbülfəz Fərəcoğlu, Con Lennan, Vaqif Səmədoğlu, Hüseynağa Atakişiyev haqqındadı. Ancaq hər bir esseni, ədəbi fraqmeti oxuyub sona varınca baxıb görürsən ki, yox ey, bu yazılanların iç dünyasında daha çox Adil Mirseyidin özü var. O, mahir bir portret ustas kimi ayrı-ayrı adlar, ünvanlar altında, əslində, özünü ifadə edib. Necə ki, hərdən onun özünə elə gəlirdi Con Lennanın kompozisiyalarında daha çox öz qədərini qəribə bir öncəgörənliklə notlara köçürüb. Adil Mirseyid dərdin bir bəxtiyarlıqla uzun illərin təcrübəsindən sonra insanları təbəssümündən və göz yaşlarından tanımağı öyrənməsini yazırdı: ”Ən ağır, ən dərdli çağlarımda mən dostlarımın təbəssümlərinə sığınmışam, qəfil yağan yağışda yuvasız bir quşun pəncərə önündə ayaq üstə güclə dayana bildiyi bir ümid zolağına güvəndiyi kimi”.

Bu güvəncdə Adil Mirseyidin özünün bütün qələm dostları, yaxınları üçün unudulmaz olan təbəssümü, ərki də var. Adil Mirseyidin ümmanlar kimi dərin (və tutqun), eyni zamanda məsum, yumşaq, tər-təmiz baxışları dəmadəm onun özünün Tarkovski haqqında yazdıqlarını göz önünə gətirməkdədi. O, elə bil özünü bu görkəmli rejissorun baxışlarının dibində gizlətmişdi.

O, sözün həqiqi mənasında labrintlər aləmində yaşayan bir insan idi. Qalın şüşəli eynəyini elə bil ki, gözlərindən iç dünyasına açılan aləmə pərdə tutmuşdu. Az qala birdəfəlik barmaqları arasına qaynaq edilmiş siqaretindən qalxan tüstü burumu bu qalın şüşənin arxasından yer üzünə, ətrafına (və gözlər aləminə) dikilən baxışlarıyla həmahəng idi. Bu aləmin harmoniyasında ümumi bir rahatlıq, əmin-amanlıq yansımaqdaydı. Baxdıqca heç cür ağlına gətirməzdin ki, bu rahatlığın, əmin-amanlığın o biri üzündə monastrlar dünyasına asi olan bir şair varlığı dəryadan ayrı düşmüş balıq kimi çabalayır.

O, öz durumunu həmkarı, görkəmli rəssam Mircavadın barəsində yazdığı fikirlə daha çox ifadə etmişdi; başdan-binədən sonuncu minotavrın ölümündən sonrakı dünyanın adamı idi... Adil Mirseyid özgələrinin uğruna sevinməkdə daha çox səxavətli idi. O, büsbütün istedad aludəçisi, heyranı, Məcnunu idi. İstedadı sonsuz bir aludəçiliklə önə çıxarmaq, tanıtmaq missiyası Adilin boyuna biçilmişdi. Fərq etməzdi ki, onun təqdim etdiyi sənətkar, qələm əhli cəmiyyətdə nə dərəcədə tanınır. Əsas olan onun sahib olduğu istedad faktı idi. O, Salvador Dali, Pikasso, Rubens, Mircavid haqqında da eyni fikir ucalığı, səxavət duyğusu ilə yazırdı, imzası heç kəsə məlum olmayan şəhid şair Nizami Aydın, rəssam Çingiz Əziz və başqaları haqqında da. Eyni zamanda haqqında bu imzalar, simalar yazdıqları onun özünün özü barəsində yazacaqlar idi. Bu insanların haqqında söylədiyi fikirlərlə o, həm də öz portretini çərkirdi. Bunun fərqindəydi. Xüsusi bir vurğunluqla, heyranlıqla haqqında bəhs etdiyi Çingiz Əzizlə bağlı essesində yazdıqları buna sübutdur: ”Çingizin özü haqqında danışmaq istəyirəm. Onun rəsm əsərləri, sərgisi fonunda Çingiz Əzizin portretini çəkmək istəyirəm. Portret həmişə ikiqat obrazdı - modelin və rəssamın obrazı. Deməli, mən Çingizin portretini çəkə bilsəm, həm də öz portretimi yaradacağam. Onun haqqında nə yazsam, dolayısı ilə həm də özüm haqqında yazmış olacam”.

Bu ikiqatlığın bir tərəfində, bəlkə də lap ön qatda Adilin özü, onun sirli, hər kəsə yaxın (və çox uzaq) varlığı dayanır; bu varlıq öz durumunda saf bir uşaq təbəssümü yansıdır. Daha çox öz yazdıqlarını xatırladır:

***...Bu uşaq kimdi, Allah?!***
***Hardan gəlib, hara gedir bu uşaq?***
***Söylə, ustad,***
***Nədir istedad?***
***Şeytan nədi, mələk nədi?***
***Tale nədi, fələk nədi?***
***Dahiliklə divanəlik arasında***
***Uzanan qıl körpüdən***
***Necə keçdin qaranlıqda sən?***
***Sən bir günəbaxansan,***
***Bəlkə bizim hamımızdan***
***Göy üzünə yaxnsan.***